# 30 ildən sonra nəşi tapılan şəhid Mehdiqulu Quliyev Beyləqanda torpağa tapşırılıb



**Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Quliyev Mehdiqulu Mədət oğlunun meyiti Beyləqan rayonunda dəfn edilib.**

AZƏRTAC xəbər verir ki, şəhid Mehdiqulu Quliyevlə keçirilən vida mərasimində rayon sakinləri, şəhidin ailə üzvləri, Cəbrayıl və Beyləqan rayon icra hakimiyyətlərinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra şəhid Milabad qəsəbə məzarlığında dəfn olunub.

Qeyd edək ki, Mehdiqulu Mədət oğlu Quliyev naməlum şəhid kimi Füzulinin Bala Bəhmənli kənd qəbiristanlığında torpağa tapşırılmışdı.

Onun ailəsi - həyat yoldaşı və üç azyaşlı övladı da 1993-cü ildə itkin düşüblər.

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.12.